Bakı Dövlət Universiteti (BDU) və İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) arasında magistratura səviyyəsində biotexnologiya ixtisası üzrə ikili diplom proqramına qəbul müvafiq tədris ilində mərkəzləşdirilmiş imtahanda əldə olunmuş nəticələr əsasında Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır.

İkili diplom proqramına müraciət üçün aşağıdakılar tələb olunur:

• biologiya, kimya, kimya mühəndisliyi, fizika və ya ekologiya ixtisaslarından biri üzrə bakalavr dərəcəsinə malik olmaq;

• yüksək akademik göstəriciyə malik olmaq (Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) – 80+);

• IELTS üzrə minimum 6 və ya internetəsaslı TOEFL testində minimum 89 bal;

• bakalavr dərəcəsinin əldə edildiyi ali məktəbin professor-müəllim heyətindən tövsiyə məktubu;
• tibbi arayış.

Tədris ilinin I semestrində təhsil BDU-da, II semestrində isə HUJI-də həyata keçiriləcək. Tələbə HUJI-nin “non-thesis” (dissertasiya müdafiəsi olmadan) diplomunu və təhsilinin ikinci ilini BDU-da davam etdirməklə BDU və HUJİ-nin “non-thesis” magistr diplomunu alacaq.

Proqramın birinci ilini fərqlənmə ilə bitirən tələbələr tədrisin ikinci ilində HUJI-nin “Thesis” proqramına qoşulma imkanı qazanmaqla BDU və HUJI-nin “thesis” magistr diplomunu alacaqlar.

Proqrama müraciət və əlavə suallar üçün qeyd olunan elektron poçt ünvanı ilə əlaqə saxlaya bilərsiniz: Huji@bsu.edu.az.